COP29 Baku Azerbaijan

## Yaşıl dünya naminə həmrəy olaq!



***COP** - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

# "YAŞIL DÜNYA" NAMİNƏ "YAŞIL ENERJİ" HƏMRƏYLİYİ



**Bu günlərdə dünyanın diqqəti yenidən mədəniyyət paytaxtımız qədim Şuşaya yönəldi. İyulun 20-22-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumu keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın 50-dən artıq ölkəsindən gəlmiş media nümayəndələrinin qatıldığı Forumda iştirak edərək jurnalistlərin çoxsaylı suallarını cavablandırdı.**

Forumda Azərbaycanın noyabr ayında keçiriləcək COP29 kimi möhtəşəm beynəlxalq tədbirə ev sahibliyi etməsi təqdirəlayiq hal kimi yüksək dəyərləndirildi. Ölkəmizin enerji siyasətində "yaşıl enerji"nin prioritet istiqamət olmasından, iqlim dəyişməsinə təsir edən amillərdən, ekoloji fəsadların aradan qaldırılması üçün görülən tədbirlərdən söhbət açıldı.

Dövlətimizin başçısı COP29-la bağlı suala aydınlıq gətirərək bildirdi ki, **"...bizim COP heyətimiz çox səmərəli işləyir, öz vaxtının böyük hissəsini xaricdə keçirir, müxtəlif görüşlər keçirir. Bizim COP-la bağlı gündəliyimiz proqnozlaşdırıla bilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikdir".**

Ölkəmizdə müasir çağırışlara cavab verən, milli prioritetlərlə müəyyən edilmiş yeni strategiya həyata keçirilir. Əsas 5 milli prioritet arasında təmiz ətraf mühit və "yaşıl inkişaf"ı təşviq etmək öhdəliyi vardır.

COP29 təkcə ekoloji təşəbbüslər üçün deyil, həm də işğaldan azad edilmiş ərazilərə qayıdış da daxil olmaqla sürətli iqtisadi inkişaf üçün maliyyə dəstəyinin təmin edilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Ölkənin sosial-iqtisadi prioritetlərinin idarə edilməsində, balanslaşdırılmış və davamlı yanaşmanın təmin olunmasında maliyyə dəstəyinin böyük rolu vardır. Milli ekoloji siyasətin beynəlxalq təcrübələrlə uzlaşdırılmasında, ətraf mühitin mühafizəsi və iqtisadi artımın tarazlaşdırılmasında bu mötəbər tədbirin geniş imkanlar açacağı nəzərdə tutulur.

COP29 ekoloji məqsədlərin milli prioritetlərə inteqrasiyasında, davamlı iqtisadi inkişafa nail olunmasında unikal platforma hesab olunur. Bu qlobal forumda Azərbaycan ekoloji problemləri beynəlxalq səviyyədə diqqətə çatdırmaqla yanaşı, həm də müasir innovasiyalara və rəqabətqabiliyyətli insan kapitalına töhfə verən ölkə kimi tanınacaqdır.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi, qabaqcıl texnologiyalara sərmayə qoyulması gələcək üçün olduqca vacib və əhəmiyyətlidir. COP29 siyasətin uyğunlaşdırılması, biliklərin ötürülməsi və texnoloji irəliləyişlər üçün yeni mexanizm ortaya qoyur. Həmçinin beynəlxalq forum paylaşılan təcrübə və öyrənilmiş dərslərə əsaslanaraq, ekoloji problemlərin birgə həlli üçün müzakirə platforması formalaşdırır.

Möhtərəm Prezidentimiz 2-ci Şuşa Qlobal Media Formunda dünyada mövcud ədalətsizliyə və ikili standartlara toxunaraq deyib: "... qərardan altı ay keçdikdən sonra biz daha az hücuma məruz qalırıq. Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdır. Ədalətsiz və ikili standartlara əsaslanan işıqlandırmaya gəlsək, biz bilirik ki, COP tədbirinin biri Qlazqoda - Böyük Britaniyanın neft hasil etdiyi bir bölgəsində keçirilirdi və heç kəs o zaman Böyük Britaniyanı ittiham etmirdi ki, onların neft və qazı var. Bu, məhz bizim dediklərimizin həqiqi olduğunu sübut edir. Bu tədbirin əhəmiyyəti əlbəttə ki, bütün bu mənfi hallardan qat-qat çoxdur. Çünki bu, qlobal miqyasda ən mühüm hadisələrdən biridir. Bu, dünyada beynəlxalq arenada bir nömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir. Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. 120 ölkənin iştirakı ilə orada yekdil şəkildə sədr seçilmişdik və sədrlik müddətimiz də uzadıldı. Sədrliyimiz dövründə biz böyük nüfuz qazandıq.

Biz inkişafda olan kiçik ada ölkələri ilə əməkdaşlıq edirik. Bizim COP29 çərçivəsində bununla bağlı tədbirimiz olacaqdır və orada ittifaq ölkələri də iştirak edəcək. Biz ittifaq ölkələri ilə birgə fond yaradacağıq ki, inkişafda olan həmin kiçik ada ölkələrinə kömək edək. Çünki bu vəziyyət onların mövcudluğuna təhlükədir. Yəni biz müxtəlif istiqamətdə irəliləyirik. Hesab edirəm ki, biz Birləşmiş Ərəb Əmirliklərinin COP28-in ev sahibi kimi təcrübəsindən istifadə edəcəyik və onun üzərindən işimizi aparacağıq".

Problemlərin həllinə qlobal şəkildə birgə yanaşma beynəlxalq səviyyədə ekoloji tədbirlərin həyata keçirilməsinin məqsədəuyğunluğunu və səmərəliliyini daha da artıracaqdır.

Son illər Azərbaycan bərpaolunan enerji sahəsində böyük uğurlara imza atıb. 230 MVt gücünə malik Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında sənaye miqyaslı ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Hər il stansiyada 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaqdır.

Ölkəmizdə 240 meqavatlıq "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının inşası da yekunlaşmaq üzrədir. Bundan əlavə, Bakıda ümumi həcmi 1 qiqavat olan 3 Günəş və külək elektrik stansiyasının təməli qoyulub. Texniki baxımdan dənizdə külək enerjisi potensialı 157 qiqavatdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına görə ölkəmizdə Günəş və külək elektrik stansiyalarının potensialını 27 qiqavata çatdırmaq mümkündür.

Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan "yaşıl enerji" zonaları elan edilib. Burada Günəş və külək elektrik enerjisi istehsalı sahəsində böyük potensial mövcuddur. 44 günlük Vətən müharibəsindən sonra üç il ərzində 270 meqavat həcmində su elektrik stansiyaları tikilib istifadəyə verilib. Yaxın vaxtlarda bu rəqəm 500 meqavata çatdırılacaqdır. Qarabağda istehsal edilən elektrik enerjisi ölkəmizin digər bölgələrinə də nəql olunacaqdır.

COP29 vasitəsilə formalaşan potensial, investisiya imkanları təkcə ətraf mühitin mühafizəsi ilə məhdudlaşmır. Azərbaycan bu dəstəkdən daha geniş sosial-iqtisadi inkişaf, o cümlədən işğaldan azad edilmiş ərazilərin bərpasında yaşıl enerjinin payının artırılması ilə bağlı təşəbbüsləri gücləndirmək üçün istifadə edə bilər. Beynəlxalq maliyyələşdirməni təmin etməklə, işğaldan azad olunmuş rayonlarda ətraf mühitin bərpasını iqtisadi canlanma ilə birləşdirərək çoxşaxəli problemləri həll etmək mümkündür.

COP29-un dəstəklədiyi texnoloji mübadilə və innovasiya Azərbaycanın yaşıl inkişaf strategiyasının əsas hədəflərindəndir. Bu mötəbər beynəlxalq tədbir ölkəmizin daha təmiz, daha yaşıl və dayanıqlı iqtisadiyyata doğru irəliləməsinə dəstək verəcək, müstəqil Azərbaycanı qlobal dialoqa töhfə verən nüfuzlu dövlət kimi bütün dünyaya tanıdacaqdır.

Ölkəmiz qısa zaman kəsiyində zəngin innovativ həllər və qabaqcıl texnologiyalara sahib olacaq, qlobal ekosistemdə ön sıralara çıxacaqdır. Ekoloji dayanıqlılığın və iqtisadi rifahın ahəngdar şəkildə uzlaşması ölkəmizi davamlı yüksəlişə və uğurlu gələcəyə doğru aparır.

**Ramiq HEYDƏRLİ,**
**Füzuli hərbi prokurorunun böyük köməkçisi, ədliyyə leytenantı.**